Respublika fənn olimpiadaları (bundan sonra RFO) ilə bağlı ən çox verilən suallar və cavablar

Dəstək xətti: +994512067848 (vatsap)

Olimpiada ilə bağlı suallar:

Sual: RFO nədir?

Cavab: RFO – Respublika Fənn Olimpiadalarıdır. Elm və Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, hər tədris ilində bir dəfə təşkil olunan, şagirdlərin fənlər üzrə bilik və bacarıqlarının yoxlanılmasına, istedadlı şagirdlərin aşkar edilməsinə və onların inkişafının təşviqinə yönəlmiş bilik yarışıdır.

Sual: RFO hansı turlardan və mərhələlərdən ibarətdir?

Cavab: RFO ümumilikdə dörd mərhələdə təşkil olunur:

1. Məktəb mərhələsi,
2. Rayon (şəhər) mərhələsi,
3. Respublika mərhələsi yarımfinal turu,
4. Respublika mərhələsi final turu.

Sual: Məktəb mərhələsi necə təşkil olunacaq?

Cavab: Şagirdlərin hər biri portal.edu.az platforması üzərindən qeydiyyatdan keçməlidir (valideyn və ya qanuni nümayəndə kabineti vasitəsilə). Qeydiyyat prosesini tamamlayan şagirdlər Regional Təhsil İdarələri tərəfindən təşkil edilən məktəb mərhələsində iştirak etməlidirlər. Növbəti — rayon (şəhər) mərhələsində iştirak edəcək şagirdlər isə Regional Təhsil İdarəsi nəzdində yaradılmış Təşkilat Komitəsinin qərarı əsasında müəyyənləşdiriləcək.

QEYD: ***Digər qurumlara tabe olan və özəl ümumi təhsil müəssisələri məktəb mərhələsini daxili imtahan əsasında keçirməli və növbəti mərhələyə vəsiqə qazanan şagirdlərin siyahısını MÜTDA-ya təqdim etməlidirlər.***

Sual: RFO hansı fənlər üzrə keçirilir?

Cavab: RFO Azərbaycan dili və ədəbiyyatı, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri olmaqla 8 müxtəlif fənn üzrə keçirilir.

Sual: Məktəb mərhələsində iştirak üçün buraxılış vərəqəsinə ehtiyac varmı?

Cavab: Məktəb mərhələsində portal.edu.az platformasında buraxılış vərəqəsi təqdim olunmur. Yalnız Regional Təhsil İdarəsi tərəfindən keçirilən imtahanda uğurlu nəticə göstərərək növbəti mərhələdə iştirak hüququ qazanan şagirdlər üçün platformaya buraxılış vərəqəsi yüklənəcək. Şagirdin şəxsi kabinetində müsabiqə statusu barədə məlumat əks olunacaq.

Sual: RFO-da bir neçə fənn üzrə iştirak mümkündür?

Cavab: İnformatika fənni istisna olmaqla, şagirdlər yalnız bir fənn üzrə iştirak edə bilərlər. Hər hansı fənn üzrə qeydiyyatdan keçmiş şagirdlər informatika fənni üzrə də qeydiyyatdan keçərək olimpiadada iştirak edə bilərlər.

Sual: RFO-da necə iştirak edilə bilər?
Cavab: RFO-da iştirak məqsədilə (valideyn və ya qanuni nümayəndə kabineti vasitəsilə) portal.edu.az saytından qeydiyyatdan keçə bilərsiniz.

Sual: Qeydiyyat hansı tarixləri əhatə edir?
Cavab: Respublika Fənn Olimpiadalarında iştirak üçün qeydiyyat elm və təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilmiş Təşkilat Komitəsinin qərarına əsasən, hər il oktyabr-noyabr aylarında həyata keçirilir. Qeydiyyatın dəqiq tarixləri barədə məlumat rəsmi kanallar vasitəsilə elan olunur.

Sual: RFO-da neçənci sinif şagirdləri iştirak edə bilər?
Cavab: RFO-da yalnız VIII, IX, X və XI sinif şagirdləri iştirak edirlər.

Sual: RFO-da tapşırıqlar kimlər tərəfindən hazırlanır?
Cavab: RFO-da şagirdlərə təqdim edilən tapşırıqlar Elm və Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş münsiflər heyəti tərəfindən hazırlanır.

Sual: RFO tapşırıqları hansı mövzuları əhatə edir?
Cavab: RFO-nun proqramı məktəb proqramı ilə məhdudlaşmır. Olimpiadalarla əlaqədar müvafiq proqram **www.arti.edu.az** saytında yerləşdirilir.

Qeydiyyatla bağlı suallar:

Xüsusi qeyd: *Hər bir şagird **məktəb mərhələsi** zamanı yalnız bir dəfə qeydiyyatdan keçə bilər.*

Sual 1. RFO-ya necə qeydiyyatdan keçməliyəm?
Cavab: RFO-ya müraciət etmək istəyən şəxslərin valideyni və ya qanuni nümayəndəsi ilk öncə **"portal.edu.az"** saytında qeydiyyatdan keçməlidir. Qeydiyyatdan keçdikdən sonra olimpiadada iştirak edəcək şagirdi əlavə etməklə **"Xidmətlər"** bölməsindən **"Olimpiadalar və Müsabiqələr"** bölməsini seçib, **"Müraciət et"** düyməsini sıxmaqla müraciət göndərə bilərlər.

Sual 2. Portalda övladımı (və ya şagirdi) öz kabinetimə necə əlavə edə bilərəm?
Cavab: Övladı və ya şagirdi portal.edu.az-da **"Tənzimləmələr"** bölməsindən **"Övlad əlavə et"** düyməsini sıxmaqla ÜTİS kod və ya FİN kod ilə əlavə etmək mümkündür.

Sual 3. Portalda şagird özü kabinet yaradıb müraciət edə bilərmi?
Cavab: Xeyr, şagird özü birbaşa müraciət edə bilməz. Yalnız valideyn və ya qanuni nümayəndə tərəfindən yaradılmış kabinet vasitəsilə müraciət göndərmək mümkündür.

Sual 4. Portalda artıq qeydiyyatım varsa, yenidən sistemdə qeydiyyatdan keçməliyəm?
Cavab: Xeyr, ehtiyac yoxdur. Şəxsi kabinetə daxil olaraq müraciətinizi tamamlayıb göndərməmisinizsə, mütləq **"Olimpiadalar və Müsabiqələr"** xidmətini seçməklə müraciətinizi göndərməlisiniz.

Sual 5. Portalda qeydiyyatım var, amma sistemə daxil ola bilmirəm. Nə etməliyəm?
Cavab: Portala giriş myGov, SİMA, ASAN İmza və digər müvafiq elektron identifikasiya vasitələri ilə həyata keçirilir. Bu səbəbdən elektron identifikasiya vasitələrindən biri ilə sistemə daxil ola bilərsiniz.

Sual 6. Sistemə daxil olduqdan sonra hansı xidməti seçməliyəm?
Cavab: Sistemə daxil olduqdan sonra **"Olimpiadalar və Müsabiqələr"** xidmətini seçməli və məlumatlarınızı formaya uyğun doldurmalısınız.

Sual 7. Şəxsi məlumatlarımı necə daxil etməliyəm?
Cavab: Şəxsi məlumatlarınız şəxsiyyət vəsiqənizin FİN kodu vasitəsilə avtomatik olaraq əks olunur. Yəni hər hansı məlumatı daxil etməyinizə ehtiyac yoxdur.

Sual 8. Şəxsi məlumatlarım barədə nələrə diqqət etməliyəm?
Cavab: Qeydiyyat zamanı daxil edilən FİN kodunun, mobil nömrənin, e-poçt ünvanının və digər məlumatların müraciətçinin özünə aid olmasına diqqət edilməlidir.

Sual 9. Olimpiadalar hansı bölmələr üzrə təşkil edilir?
Cavab: Respublika Fənn Olimpiadalarında Azərbaycan, rus və ingilis dilləri üzrə imtahan bölmələri nəzərdə tutulur. Tədris dili rus və ya ingilis dili olan şagirdlər imtahan dilini seçim əsasında müəyyən edə bilərlər. Azərbaycan bölməsi üzrə təhsil alan şagirdlər isə imtahanda Azərbaycan dilində iştirak edirlər.

Sual 10. Şəxsi məlumatlarımdakı elektron poçt və ya mobil nömrə mənə aid deyil, nə etməliyəm?
Cavab: Şəxsi məlumatlarınızda qeyd olunan elektron poçt ünvanı və ya mobil nömrə düzgün deyilsə, portalın **"Tənzimləmələr"** bölməsinə daxil olaraq müvafiq məlumatlara düzəliş edə bilərsiniz.

Sual 11. Sənədlərimin qəbul edilib-edilmədiyini necə öyrənə bilərəm?
Cavab: Müraciətinizi şəxsi kabinetinizdə **"Müsabiqələr və Olimpiadalar"** xidmətinə daxil olaraq, **"Ümumi məlumatlar"** səhifəsində "Statusların tarixçəsi" bölməsindən öyrənə bilərsiniz. Qeydiyyatını tamamlayaraq təsdiq etmiş bütün müraciətçilər "status" vasitəsilə prosesin gedişini izləyə bilərlər.

Sual 12. İmtahanda iştirak üçün buraxılış vərəqəsini necə əldə edə bilərəm?
Cavab: Müraciətini tamamlamış bütün şagirdlər müəssisənin tabe olduğu qurum vasitəsilə təşkil olunmuş "Məktəb turu" mərhələsində iştirak edəcək. Yalnız həmin turda uğur qazanan şagirdlər öz şəxsi kabinetlərindən **"buraxılış vərəqəsi"**-ni çap edə biləcəklər.

Sual 13. Müraciət zamanı nələrə diqqət etməliyəm?

Cavab: Müraciət zamanı iştirak etmək istədiyiniz fənni və imtahan bölməsini düzgün seçməyiniz vacibdir. Müraciəti təsdiq etməzdən əvvəl seçdiyiniz məlumatların düzgünlüyünü yoxlamağınız tövsiyə olunur.

Qeyd: Müraciətiniz təsdiqləndikdən sonra məlumatları dəyişdirmək mümkün olmayacaqdır.

Sual 14. Qeydiyyatla bağlı yaranmış çətinlikləri hara bildirməliyəm?

Cavab: Qeydiyyat prosesi ilə bağlı hər hansı sual və ya çətinlik yaranarsa, MÜTDA-nın 146-2 Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

İmtahan və təşkilati məsələlər ilə bağlı suallar:

Sual 1. İmtahanın keçiriləcəyi tarix və məkan barədə məlumatı haradan əldə edə bilərəm?

Cavab: Rayon (şəhər) mərhələsində iştirak etmək hüququ qazanan şagirdlərin şəxsi kabinetlərinə buraxılış vərəqələri yerləşdiriləcək. İmtahanın tarixi, başlama saatı və keçiriləcəyi məkan barədə ətraflı məlumat buraxılış vərəqəsində qeyd olunacaq.

Sual 2. İmtahana gələrkən hansı sənədləri təqdim etməliyəm?

Cavab: İmtahanda iştirak etmək üçün şəxsiyyət vəsiqənizi və şəxsi kabinetinizdən əldə etdiyiniz buraxılış vərəqəsini təqdim etməlisiniz.

Sual 3. İmtahana gecikdikdə iştirak edə bilərəmmi?

Cavab: İmtahanın başlanma vaxtından etibarən ən çoxu 30 dəqiqə gecikən şagirdlərin imtahanda iştirakına icazə verilir. 30 dəqiqədən artıq gecikən şagirdlər imtahana buraxılmırlar.

Sual 4. İmtahan zamanı hansı vasitələrdən istifadə etməyə icazə verilir?

Cavab: İmtahan zamanı şagirdlər yazı üçün qələmdən, ehtiyac olduqda isə eynəkdən istifadə edə bilərlər. Yalnız **fizika** və **kimya** fənləri üzrə imtahanlarda iştirak edən şagirdlərə kalkulyatordan istifadəyə də icazə verilir.

Sual 5. İmtahanda iştirak edə bilmədikdə başqa tarixdə imtahan vermək mümkündürmü?

Cavab: Xeyr. Respublika Fənn Olimpiadalarının hər mərhələsi üzrə imtahan bütün iştirakçılar üçün eyni tarixdə və eyni vaxtda təşkil olunur. İmtahanda iştirak edə bilməyən şagirdlər üçün əlavə imtahan nəzərdə tutulmur.

Respublika fənn olimpiadaları (bundan sonra RFO) ilə bağlı ən çox verilən suallar və cavablar

Dəstək xətti: +994512067848 (vatsap)

Nəticələrlə bağlı suallar:

Sual 1. İmtahan nəticələrini haradan öyrənə bilərəm?

Cavab: İmtahan nəticələri şagirdin valideyni və ya qanuni nümayəndəsi tərəfindən elektron portalda (portal.edu.az) şəxsi kabinetə daxil olmaqla əldə edilə bilər.

Sual 2. Nəticələr nə vaxt elan olunacaq?

Cavab: İmtahan nəticələrinin yoxlanılma müddəti imtahanın formatından və yoxlanılacaq işlərin həcmindən asılı olaraq dəyişir. Nəticələrin elan olunacağı tarix barədə iştirakçılara imtahan zamanı məlumat verilir. Həmçinin, nəticələr və ümumi proses barədə məlumatlar Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin rəsmi kommunikasiya kanalları vasitəsilə paylaşılır.

Sual 3. Nəticəmdən narazı olduğum halda müraciət edə bilərəmmi?

Cavab: İmtahan tapşırıqlarının məzmunu və qiymətləndirilməsi ilə bağlı suallar olduqda Azərbaycan Respublikasının Təhsil İnstitutuna (ARTİ), imtahanın təşkili və keçirilməsi ilə bağlı məsələlər üzrə isə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə (MÜTDA) müraciət edə bilərsiniz.